DOI: 10.36719/AEM/2007-2020/54/33-37

**Aysu Mahir qızı Baxşəliyeva**
Bakı Slavyan Universiteti
aysu_1999fa@icloud.com

# "DİL KİMLİYİ" İDEYASININ APARICI FƏLSƏFİ KONSEPSİYALARLA KORRELYASİYASINA DAİR (klassik alman fəlsəfəsindən strukturalizmə qədər)

***Açar sözlər:*** *"dil kimliyi" ideyası, fəlsəfi cərəyan və konsepsiyalar, klassik alman fəlsəfəsi, Humboldt çuluq və neoHumboldt çuluq, strukturalizm*
***Key words:*** *language identity, philosophy, Humboldtianism and neo-Humboldtianism, structuralism*
***Ключевые слова:*** *языковая личность, философские тенденции и концепции, классическая немецкая философия, гумбольдтианство и неогумбольдтианство, структурализм*

## Giriş

"Dil kimliyi" nəzəriyyəsinin təşəkkül tarixini izlədikdə belə bir mütləq qanunauyğunluqla rastlaşmış oluruq: "dil kimliyi" ideyasının (*yəni, verilmiş konkret çərçivədə araşdırma obyektini bu və ya digər mərhələdəki "dil kimliyi" ideyasının*) təşəkkülü və inkişafı bilavasitə həmin dövrdə hakim olan ideya-nəzəri doktrinalarla şərtlənir. Başqa sözlə desək, verilmiş zaman kəsimindəki "dil kimliyi" ideyasının inkişaf tempi və spesifikası bu və yadigər dərəcədə məhz həmin dövrdə hansı fəlsəfi konsepsiyanın aparıcı mövqeyə malik olmasından asılılıq nümayiş etdirir. Xatırlatmaq kifayətdir ki, "dil kimliyi" ideyasının nəzəri qaynağı kimi dəyərləndirilən V.fon.Humboldt un dilçilik görüşlərinin formalaşmasında Hegel dialektikası mühüm, hətta deyərdik ki, həlledici rol oynamışdır. Humboldt un dil təkamülü konsepsiyasında da bilavasitə Hegel dialektikasının izlərini müşahidə etmək olar. Bununla belə, "onu da qeyd edək ki, ümumi dilçiliyin banisinin linqvistik gö- rüşlərinin formalaşmasında təkcə Hegel ideyaları deyil, ilk növbədə Kant təlimi və eləcə də İ.Fixte və F.Şellinq fəlsəfəsi önəmli rol oynamışdır [1, 234]. Nəzərə alsaq ki, klassik alman fəlsəfəsinin əsas nəzəri doktrinaları sırasında "xalq ruhu" konsepsiyası yer alır, bu zaman həmin fəlsəfi cərəyanın təsiri ilə formalaşmış Humboldt çuluqda "xalq ruhu" ilə fərdi psixologizm məqamlarına diqqət ayrılması tam məntiqəmüvafiq görünür. Humboldt nəinki xalq ruhunun və fərdi ruhun inikası kimi dil və nitq fərqləndirilməsinə diqqət yetirmişdir, dahi dilçi eləcə də yaradıcı şəxslərin, qələm sahiblərin dildən bir "alət" kimi istifadəsində yaranan çətinliklərin bilavasitə həmin dildəki "xalq ruhu"nun inikası səviyyəsilə əlaqələndirmişdir. Bu isə, öz növbəsində, (müasir dilçilik terminologiyası ilə desək) yaradıcı şəxsin dili kimliyinin milli dil kimliyi ilə korrellyasiyası məqamına toxunmaq anlamına gəlir. V.F.Humboldt yazırdı: "Əgər ***dil şairlərə öz sənətində ustalıq nümayiş etdirməkdə maneçilik törədirsə***, bu o deməkdir ki, millət, xalq onun (dilin – B.M.) bədii kamilliyinin nədən ibarət olunduğunun fərqinə varmır, bilmir. Bu, o deməkdir ki, həmin xalq və həmin dil hələ poeziyanın yüksək üslu bundan uzaqdır və, deməli, hələ xalq onun (dilin) xeyirli, faydalı "məhsullarından" öz mədəniyyətinin inkişafı və xarakterinin (milli ruhunun, milli xarakterinin – B.M.) təşəkkülü naminə istifadə edə bilməyəcəkdir" [2, 181]. Başqa sözlə desək, Humboldt poetik üslub üçün, yüksək bəlağətli nitq formatı üçün yararlı "alət" kimi çıxış edə bilməyən dilin bir zəngin "təfəkkür aqreqatı" olaraq hələ kəşf edilmədiyini, yəni konkret olaraq həmin xalq tərə- findən dilin sirli və sehirli imkanlarının aşkarlanmadığını vurğulayır. Göründüyü kimi, Humboldt nəinki fərdi dil kimliyi və milli dil kimliyinin korrelyasiyasına diqqət çəkir, o, həmçinin bilavasitə yaradıcı şəxsin dil kimliyinin milli dil kimliyinin ən yüksək təzahür forması olmasını dolayı şəkildə etiraf etmiş olur. "Dil kimliyi" konsepsiyasının müasir terminologiyası artıq formalaşmış terminoloji inventara malik olduğundan, biz, Humboldt un səsləndirdiyi fikrin müasir interpretasiyasını belə verə bilərik: simfonik dil kimliyi individual dil kimliyində təzahür tapır. Eyni zamnada simfonik dil kimliyi yüksək səviyyədə formalaşmamaış xalqın fərdlərinin dil kimliyi, o cümlədən (və bəlkə də, xüsusilə) yaradıcı şəxslərin dil kimliyi zəngin dil inventarı ilə təhciz oluna bilməz. V.fon.Humboldt öz "hökmünün" əsaslandırması kimi belə bir açıqlama da təqdim edir: "...Çünki poeziya dil vasitələrin "rənglərilə", rəngarəngliyi ilə təsir etmək imkanına malikdir. Elə vasitələrin ki, ilkin mərhələdə yalnız təfəkkürün tələbləri müqabilində yaranmışdır və fanta- ziyaya (yəni, yaradıcı təxəyyülə – B.M.) keçidi üçün həmin vasitələrin təkrar "emalı" vacibdir. Poeziya isə sadəcə təxəyyülə xitab etməklə kifayətlənmə- yib, həm də asanlıqla fəlsəfə sahəsinə keçid edə bilər, bilavasitə ruh və ürəyə toxuna bilər" [2, 181]. Göründüyü kimi, Humboldt yaradıcı şəxsin dil kimliyinin ümumilikdə milli dil kimliyə təsir imkanlarının yetərincə genişliyi fikrini önə sürür: yaradıcı şəxsin dil kimliyində ifadə tapmış fikirlər son nəticədə "ruha və ürəyə" xitab etməklə milli ruhun transformasiyasını mümkün edə bilir. Bütün bu məqamlar isə, öz növbəsində,

Humboldt un bütün dilçilik görüşlərində olduğu kimi, onun xalq ruhu ilə bağlı mülahizələrində də klassik alman fəlsəfəsinin əsas doktrinalarını rəhbər tutduğunu əyani şəkildə ortaya qoyur. G.V.Ramişvili Humboldt ideyalarının təkcə Hegelin deyil, eləcə də klassik alman fəlsəfəsinin digər görkəmli nümayəndələrinin (İ.Kantın, İ.V.Hötenin, F.Şillerin, F.Q.Yakobinin və başqalarının) təsirilə formalaşdırdığını, növbəti mərhələdə isə yeni alman fəlsəfəsinin, yəni XX əsrin I yarısındakı alman fəlsəfi antropologiyasının ideya qaynağı olduğunu qeyd etmişdir [3]. Başqa sözlə desək, XX əsrin I yarısındakı alman fəsləfi antropologiyası və bu əsasda yaranmış neo Humboldt çuluq da təkcə Humboldt ideyalarının deyil, həm də klassik alman fəlsəfəsinin varisləri sayıla bilərlər.

Humboldtun ümumi milli ruhun inkişafında dilin rolu probleminə münasibətdə sələfi İ.Q.Herderin fikirlərini davam etdirdiyini bildirən Y.B.Xromova qeyd edir ki, məhz Herder dilin hər bir fərdin nitqində var olub inkişaf etdiyini önə sürmüşdür. Herderə görə, dünyada bir-birinin tam bənzəri olan, eyni üz cizgilərinə malik olan iki insanı tapmaq qeyri-mümkün olduğu kimi, eyni nitq ifadəsinə malik olan iki insanın da mövcudluğu mümkünsüzdür. Xarici şərtlənmələr (Herder bura iqlimi, sosial şərtilikləri və s. daxil edir) insanın nitqinə nəinki tələffüz səviyyəsində, bütövlükdə məna tutumu, söz ehtiyatı baxımından da ciddi şəkildə təsir edir: insanın nitqi bilavasitə onun həyat tərzindən asılı olur [4, 104-110]. Göründüyü kimi, Herderin dilə gətirdiyi və Humboldtun öz dilçilik görüşlərində mənimsədiyi bu konsepsiya əslində, dil kimliyi ideyasının ilkin nəzəri bazası ilə səsləşir. Belə ki, o, müasir konsepsiyada bildirildiyi kimi, dilin ayrı-ayrı dil kimliklərində təzahür tapdığını, dil kimliklərinin isə təkrarsızlığını dolayı şəkildə, yəni XVIII əsr fəlsəfi fikrinə uyğun terminologiya ilə dilə gətirmişdir. Son dövr Avropa maarifçiliyinin ən parlaq nümayəndələrindən olan İ.Q.Herder milli ruh ideyasını qabartmaqla əslində onun fərdi ruhun da "qidalandırıcısı" olduğunu önə sürmüşdür.

İ.Q.Herderin dünyanın dil mənzərəsini araşdırmış L.P.Lobanova filosofun xalqın düşüncəsi ilə onun dili arasında, demək olar ki, bərabərlik işarəsi qoyduğunu, "hər bir millət necə danışırsa elə də düşünür, necə düşünürsə elə də danışır" – fikirni önə sürdüyünə diqqət çəkir [5, 54]. Bu kontekstdə xalqın ruhu ilə onun dilinin eyniyyət təşkil etdiyini dilə gətirmiş Humboldt ideyalarının ilkin mənbəyinin məhz Herderin fəlsəfi görüşləri olduğu bir daha yəqinləşir. Əslində istər Herderin ideyası, istrəsə də onun dilçilik kon- sepsiyasının davamı olan Humboldt konsepsiyası müasir anlamda simfonik dil kimliyi ideyasının praforması, ilkin konseptual nüvəsir. Belə ki, milli dil kimliyi yanaşmasına görə, xalq necə danışırsa, elə o cür də mövcudluğa malikdir və əksinə, xalqın necə yaşam sürdürməsi onun dilində əksini tapır. Eyni doktrina fərdi dil kimliyi üçün də keçərlidir.

Maraqlıdır ki, dil və ədəbiyyatın korrelyasiyası məqamına da diqqət yetirilmişdir. Tədqiqat obyektimizdən dolayı, bizi yaradıcı şəxslərin dil kimliyi məqamı yaxından maraqlandırdığından mütəfəkkirin bu aspektdə səsləndirdiyi fikirlər diqqətimizdən kənarda qala bilməzdi. İ.Q.Herder yazırdı: "Ədəbiyyat dildə inkişaf edirdi, dil isə ədəbiyyatda inkişaf tapırdı. Onları (***dili və ədəbiyyatı*** – B.M.) ***ayırmaq istəyən əl bədxahdır, onların birini digəri olmadan ayrılıqda, tək görmək istəyən göz isə özünü aldadır***" (kursiv bizimdir. – B.M.) [5, 54].

Filosof elm dilində də dil milli təkrarsızlığı nəzərdən keçirərək qeyd edirdi: "Hər bir dil elmlərdə öz izlərini qoyur, möhürünü vurur... Dil özlüyündə həm alətdir, həm mahiyyət və məna tutumudur, həm də müəyyən səviyyədə elə elmlərin də birləşimidir" [5, 54]. Bu ideya isə bilavasitə Avropada Leo Vaysgerber və tərəfdarları, ABŞ-da isə E.Sepir və B.L.Uorf tərəfindən önə sürülən neohumboldtçuluğun əsas prinsiplərilə səsləşir. Məhz hə- min prinsiplər Sepir-Uorf nəzəriyyəsinin meydana gəlməsini mümkün etmişdir ki, bu da bilavasitə xalqın intellektual modelləri ilə onun danışdığı dil arasında qarşılıqlı şərtlənməni əsaslandırmağı hədəf alan "linqvistik nisbilik" anlayışını ortaya qoymuşdur. Dil kimliyi ideyası da məhz həmin "linqvistik nisbilik nəzəriyyəsinin" yeni elmi-terminoloji inventara oturdulmuş və daha əlavə nəzəri konsepsiyalarla təchiz edilmiş "davamı" kimi də dəyərləndirilə bilər. Belə ki, "dil kimliyi" ideyası milli dil kimliyinin və fərdi dil kimliyinin təkrarsızlığından çıxış etməklə bərabər onun intellektual modellərinin, semantik-konseptual altyapısının bilavasitə xalqın və fərdin düşüncə aparatı, həyati təcrübəsi və psixo-emosional özəlliklərilə şərtləndiyini önə sürür. Hər bir dilin öz metafizikası olduğunu bildirən Uorf öz yanaşmasının əsaslandırması məqsədilə onu da qeyd edir ki, əgər Nyuton hopi dilində da- nışsaydı, yəqin ki, onun fizaka sahəsində araşdırmaları tamamilə başqa məcrada gerçəkləşərdi [6, 82-85]. Yəni, əslində Uorfun yanaşmasında belə bir məntiq ortaya çıxır ki, Nyutonun hopi dilinə xas dünya mənzərəsinə malik olması situasiyasında heç bir alma ağacı faktoru "ağırlıq qanunun" kəşfinə yol aça bilməzdi: çünki hopi olan Nyuton ağacdan almanın düşməyində, bəlkə də heç qeyri-adi bir şey görməyəcəkdir. Deməli, Uorfun yanaşması mahiyyət etibarilə simfonik dil kimliyinin təkrarsızlığı ideyasının linqvistik nisbilik nəzəriyyəsi platformunda izahından başqa bir şey deyil. Onu da qeyd edək ki, müasir araşdırmalar intellektual proseslərin və onların modelləşdirməsinin bilavasitə dil faktoru ilə bağlılığı məqamına təkrarən diqqət ayırmağa başlamışlar və müasir

koqnitivistikanın inkişafı ilə bu məsələdə yeni təhlil standartlarının tətbiq edilməsi mümkün olmuşdur (bu barədə daha ətraflı bax: [7,147-149]).

Yaradıcı şəxsin dil kimliyi kontekstində İ.Q.Herderin görüşlərinin dəyərləndirməsi onun məhz dil və ədəbiyyatın qarşılıqlı əlaqəsi haqqında mülahizələrinə diqqət etmək ehtiyacı yaradır. M.Foster Herderin fəlsəfi görüşlərində ədəbiyyata çox geniş yer verildiyini qeyd edir: filosof hesab edirdi ki, ədəbiyyat ruha, mənəviyyata sirayət etmək gücünə malikdir və bu baxımdan mənəvi kamilləşmə prosesində ədəbiyyatın müstəsna rolu var [8].

Qeyd edək ki, neo-Humboldtd çuluğun “dil kimliyi” ideyasının ilkin postulatlarını formalaşdıran cərəyan olması faktı onun ideyaların fəlsəfi qaynağına marağımızı şərtləndirirən əsas amildır. Məlumdur ki, müasir dilçilikdə adı “dil kimliyi” konsepsiyası ilə sıx şəkildə əlaqələndirilən Leo Vaysgerber və ardıcıllarının dilçilik görüşlərinin nəzəri əsasını E.Kassirerin neokantçılıq ideyaları təşkil edirdi. E.Kassirerin dilə yanaşmasında struktura deyil, mahiyyətə önəm verməsi, dilə miflərin, dil ruhunun istinadgahı kimi yanaşması neoHumboldt çuların yanaşmasında öz müvafiq əksini tapmışdır [9]. Təsadüfi deyil ki, Uhlan von Slagle ümumiyyətlə, E.Kassirerin dil haqqındakı görüşlərini dilçi alimlərdən Leo Vaysgerber və B.L.Uorfla eyni kontekstdə dəyərləndirir və onların baxış bucaqlarında ciddi konseptual ortaqlıqların mövcudluğuna diqqət çəkir [10]. Kassirerin görüşlərinin “dil kimliyi” konsepsiyası ilə səsləşməsini sübuta yetirən əsas faktlardan biri kimi, filosofun refleksiya məqamına xüsusi diqqət yetirməsilə bağlıdır. Xatırladaq ki, XX əsrin 80-ci illərində “dil kimliyi” ideyasında əsaslı keyfiyyət dönüşü yaratmış dilçilərdən olan G.İ.Boginin konsepsiyasının ana xəttini, əsas qayəsini məhz refleksiya məqamı təşkil edirdi [11]. Kassirerə görə də, “dildəki anlayışlar daimi olaraq, aktivlik və refleksiya, fəaliyyət və düşüncənin sərhəddində qərar tuturlar” (daha ətraflı bax: [12, 157-175]). Tədqiqat obyektimiz baxımından, Kassiresin yaradıcı dil kimliyinə münasibəti məsələsi daha çox marağımıza səbəb olduğundan, onun ədəbiyyat və dil əlaqəsi ilə bağlı fikirlərinə nəzər salaq. Kassirerin dövründə dil kimliyi konsepsiyasının müasir terminoloji inventarı olmasa da, filosof dil və ədəbiyyat əlaqəsindən, şairlərin üslubi özəlliklərinin dilin inkişafında mühüm rol oynamasından geniş şəkildə bəhs etmişdir. Y.Shen bildirir ki, Kassirerə görə, məhz şairlər “dilin universal daşlarını” cilalayaraq “ədəbiyyat incisinə” çevirməyə müvəffəq olurlar. Bu mənada Kassirerin mövqeyi şairlərin dilin inkişafındakı rolu ilə bağlı Platonun yanaşmasından əhəmiyyətli dərəcədə fərqlənir [13]. L.Vaysgerberin dil kimliyi konsepsiyasından da aydın şəkildə göründüyü kimi, neoHumboldt çuluq dilin struktur cəhətlərini arxa plana alaraq, əsasən onun fərdi və milli ruhun ifadəsi olması məqamına diqqət yetirir. L.S.Yermolayevanın qeyd etdiyi kimi, neoHumboldtçular özlərindən əvvəlki dilçiləri dilin birtərəfli işıqlandırılmasında tənqid edərək onlara qədər dolğun şəkildə araşdırılmayan aspektlərə diqqət etsələr də, özləri də birtərəflilik nümayiş etdirmişlər [14, 47-86]. Yəni, gənc qrammatiklərin dilin formal aspektlərinə önəm verilməkdə və dilin “ruhuna”, fərdin, şəxsiyyətin “dil kimliyini” bir o qədər də nəzərdə almamaqda “günahlandıran” neoHumboldtçular, özləri dilin formal aspektlərini ikinci plana atmışdılar. Bu da, artıq qeyd etdiyimiz kimi, bilavasitə həmin dövrün aparıcı fəlsəfi doktrinası olan neokantçılığın təsiri ilə gerçəkləşmişdir. Qeyd edək ki, əslində “dil kimliyi” ideyasının nəzəri əsaslarının formalaşmasında Leo Vaysgerber həlledici fiqurlardan sayılsa da, artıq bildirdiyimiz kimi, onun konseptual yanaşması bu ideyanın bir çox suallarını cavabsız qoymuşdur. Bu cavabların böyük qismi yalnız XX əsrin sonlarında yeni fəlsəfi-nəzəri platformda – poststrukturalizm və postmodern platformunda formalaşmış “dil kimliyi” konsepsiyaları çərçivəsində cavablandırılmışdır. Ona diqqət çəkmək istərdik ki, Y.K.Romanenkonun da bildirdiyi kimi, hətta xalq ruhu və xalq dilinin eyniyyəti müstəvisində “dil dünyagörüşünü” (burada, sonralar – XX əsrin əvvəllərindən etibarən, “dünyanın dil mənzərəsi” termini ilə tanımlanan anlayışdan söhbət gedir – B.M.) araşdıran Humboldtun özü də bu məsələdə bir çox nəzəri sualları doğru bir biçimdə səsləndirmiş olsa da, bəzi aspektlərin birmənalı nəzəri həllini ortaya qoymamışdır [15, 10-11].

Yuxarıda qeyd olunanlar belə bir nəticəyə gəlməyə imkan verir ki, “dil kimliyi” ideyası öz nüvəsində dilin fəlsəfi, psixoloji problemlərini əks etdirdiyindən, eləcə də geniş anlamda etnomental və sosiolinqvistik problemi təcəssüm etdirdiyindən bu sahə ilə məşğul olmuş dilçilər fəlsəfi fikrin aparıcı doktrinalarından bu və ya digər dərəcədə təsirlənmişlər. Bu mənada təsadüfi deyil ki, Humboldt un dil kimlyi ilə bağlı səsləndirdiyi fikirlərdə həm klassik alman fəlsəfəsinin, həm də müəyyən dərəcədə alman maarifçiliyinin ideyalarının əks-sədasını sezmək olar. NeoHumboldt çuluğun və konkret olaraq, “dil kimliyi” nəzəriyyəsinin ilkin konseptual konturlarını cızmış Leo Vaysgerberin neokantçılıqdan təsirlənməsi də bu baxımdan məntiqə müvafiqdir. Belə ki, neoHumboldtçuluq Humboldt ideyalarının yeni əsrin yenilənmiş informasiya formatında “təkrar oxunuşu” olduğu kimi, neokantçılıq da klassik alman fəlsəfəsinin ana sütününü təşkil edən doktrinaların yenidən dəyərləndirilməsini təşkil edir. Bundan sonrakı mərhələdə strukturalizm, poststrukturalizm (o cümlədən, dekonstruksiya) və nəhayət, postmodernizm ideyalarının vüsət alması hər dəfə “dil kimliyi” ideyasında yeni korrektələrə yol açmışdır.

## Ədəbiyyat


1. Hacıyeva A.Y. Linqvistik tipologiyada tipoloji modifikasiya problemi. Bakı, 2008, 282 səh.
2. Гумбольдт Ф.В. Язык и философия культуры. М: Прогресс,1985, 450 с.
3. Рамишвили Г.В. Гумбольдтианство // Лингвистический энциклопеди- ческий словарь / Гл. ред. В.Н.Ярцева. М.: Советская энциклопедия, 1990. 685 с.http://tapemark.narod.ru/les/123c.html
4. Хромова Е.Б. Некоторые аспекты философии языка В.Фон Гумбольд- та: о соотношении понятий «Национальный дух» и «Язык» // Вестник ПНИПУ. Проблемы языкознания и педагогики, 2010, №4 (10), с. 104- 110, https://cyberleninka.ru/article/n/nekotorye-aspekty-filosofii-yazyka-v- fon-gumboldta-o-sootnoshenii-ponyatiy-natsionalnyy-duh-i-yazyk
5. Лобанова Л.П. Языковая картина мира в концепции И.Г.Гердера. // Вопросы психолингвистики 2014, 4 (22) , с.47-55 http://iling-ran.ru/- library/voprosy/22.pdf
6. Уорф Б.Л.Отношение норм поведения и мышления к языку // Зару- бежная лингвистика. I: Пер. с англ. / Общ. ред. В.А.Звегинцева и Н.С.Чемоданова. М.: Издательская фуппа «Прогресс», 1999. 308 с. (с.58-91)
7. Велихов Е.П., Чернавский А.В. Интеллектуальные процессы и их мо- делирование. М: Наука, 1987. - 396с.
8. Forster M. Johann Gottfried von Herder // Stanford Encyclopedia of Philosophy https://plato.stanford.edu/entries/herder/#PhilLangInteTran
9. Неогумбольдтианство http://tapemark.narod.ru/les/330b.html
10. von Slagle U. Language, Thought and Perception: A Proposed Theory of Meaning, Germany, Publisher: De Gruyter, 01 Jun 1974, 60 pp., https://books-google.az/books? id=vchgJSmeNrsC&pg=PA21&lpg=PA21&dq=Leo+ Weisgerber++Ernst+Ca
11. Богин Г.И. Обретение способности понимать: Введение в филологи- ческую герменевтику. Тверь 2001 http://www.bim-bad.ru/docs/bogin_- ponimanije.pdf
12. Стрельник О.Н.Э. Кассирер о связи мифа и языка // Вестник РУДН: Серия: Философия 2004, №1 (10-11), с.157-175, https://cyberleninka.ru/- article/n/e-kassirer-o-svyazi-mifa-i-yazyka
13. Shen Y. Cassirer's View of Language // International Education Studies , v2 n3 p23-26 Aug 2009. https://pdfs.semanticscholar.org/d339/7f396b4ecc76- ca29b65bfb89d7d07b95845d.pdf
14. Ермолаева Л.С. Неогумбольдтианское направление в современном бур- жуазном языкознании. / Проблемы общего и частного языкознания. М., I960, с. 47-86.
15. Романенко Е.К. Философия языка В. фонГумбольдта и ее влияние на философско-лингвистические, этнопсихологические и антропологиче- ские учения в Германии XIX - XX вв., автореферат диссер... канд. фи- лос. Наук. Москва 2011, 19 с.


## About the Correlation of the Idea of the "Language Personality" with the Leading Philosiphical Conceptions (from the Classic German Philosophy up to Structuralism)

### Summary


The article deals with the study of correlation of the idea of "language personality" with philosophical conceptions. As the idea of the "language personality" reflects the philosophical, psychological problems in its essence, as well as as it personifies ethnomental and sosiolinguistic problems the linguistics who studied this field are impressed with the leading doctrines of the philosophical concept more or less. In this meaning it is not accidental that in Humboldt 's core ideas connected with the "language personality" it is possible to come across both with the ideas of classic German philosopy and German enlightenment in a certain degree. Neo-Humboldtian's and definitely, Leo Weisgerber's impressing by Neo-Kantian trend is logical from this point of view. Thus, actually Neo-Humboldtianism is "rereading" of Humboldt 's ideas in the new information format of the new century and Neo-Kantianism is the new study of the doctrines which are the core of the classic German philosophy as well.

In the next stage every time structuralism, poststructuralism (as well as deconstruction) and finally the progress of postmodernism ideas made new corrections in the idea of "language personality".


## О корреляции идеи «языковой личности» с ведущими философскими течениями (от классицизма до структурализма)

### Резюме


Статья посвящена изучению корреляции идеи «языковой личности» с философскими течениями. Идея «языковой личности» в своей сущности от- ражает философские и психологические проблемы

языка, а также этномен- тальные и социолингвистические проблемы языка. В связи с этим языковеды, изучающие проблему языковой личности в той или иной степени подверга- лись влиянию ведущих философских доктрин своего времени. В данном кон- тексте неслучайно то, что идеи Гумбольдта о языковой личности в удиви- тельной манере вторит идеям философов немецкого классицизма и позднего немецкого просвещения. А неогумбольдтианство и, в частности, лингвистические взгляды Лео Вайсгербера (языковед который вывел идейно-концеп- туальные контуры теории языковой личности) формировались при непосред- ственном влиянии неокантианства.

В следующем этапе структурализм, постструктурализм (а также, декон- струкция) и наконец, постмодернизм ввели свои корректировки в идею языковой личности.

**Rəyçi: f.f.d. R.Ramizoğlu**

Göndərilib: 29.05.2020 Qəbul edilib: 31.05.2020